# SƏNƏTKARA HÖRMƏT, SƏNƏTƏ MƏHƏBBƏTLƏ

## *Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Q.Paşayeva şair-publisist Əlirza Xələfli ilə görüşüb*

Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva "Kredo" qəzetinin baş redaktoru, Azərbaycan Jurnalistlər və Yazıçılar birliklərinin üzvü, şair-publisist Əlirza Xələfli ilə görüşüb, onu qarşıdan gələn 70 illik yubileyi münasibəti ilə təbrik edib, ürək sözlərini bölüşüb.



Ə.Xələflinin özəlliklə vətənpərvərlik mövzusunda uzun müddətli səmərəli yaradıcı fəaliyyətini xatırladan Q.Paşayeva, ona möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları diləyib. Komitə sədri Ə.Xələfliyə Qarabağ motivli xatirə hədiyyəsi və Təbrik məktubu təqdim edib. Məktubda deyilir:

"Hörmətli Əlirza müəllim, Sizi qarşıdan gələn 70 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, möhkəm can sağlığı, yeni yaradıcılıq uğurları diləyirəm!

Siz 1984-cü ildən Azərbaycan Jurnalistlər Birliyinin, 2002-ci ildənsə Azər baycan Yazıçılar Birliyinin üzvüsüz. 1980-ci ildə "Qabaqcıl maarif xadimi" adına layiq görülmüsüz. 2010-11-ci illərdə isə Azərbaycan Prezidenti Təqaüd Fondunun təqaüdçüsü olmusunuz.

Siz Cəbrayılın Xələfli kəndində anadan olmusuz. Çox şadıq ki, bu ilki yubileyinizi doğma Cəbrayılın, digər şəhər və kəndlərimizin düşmən tapdağından qurtuluşunun 3-cü ildönümünün fərəhi, qüruru içində keçirirsiniz.

Ali təhsilinizi Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (o vaxtkı APİ) Azərbaycan dili və ədəbiyyatı fakültəsində almısınız (1971-1975).

Əmək fəaliyyətinə Cəbrayılın (təyinatla göndərildiyiniz) Şahvəlli, Tatar, Aşağı Xələfli kənd orta məktəblərində müəllim kimi başlamısınız (1975-1980). Doğma Cəbrayılın "Xudafərin" qəzeti redaksiyasında xüsusi müxbir, şöbə müdiri vəzifələrində çalışmısınız (1980-1993). Sonralar müxtəlif qəzetlərdə xüsusi müxbir, şöbə müdiri, redaktor olmusunuz. 1999-cu ildən "Kredo" qəzetinin baş redaktorusunuz. Çoxsaylı ədəbi-bədii, publisistik kitabın tərtibçi, redaktoru olmusunuz: Seyid Nigarinin "Xaki-payin tacı-sərim" (2004), Aşıq Mehdinin "Deyirdin ölərəm sənsiz" (2003) kitabları, habelə, "Mənəviyyatın ekologiyası"(2005), "Fənayənin sualları" (2006), "Yana-yana yaşadım" (2006), "Koroğlu: hoydu, dəlilərim, hoydu" (2006) və b. kitablar sizin yaxından iştirakınızla nəşrə hazırlanıb. Siz ədəbi yaradıcılığa tələbəlik illərindən başlamısınız. İlk şeirləriniz, publisistik yazılarınız hələ 80-ci illərdən dövri mətbuatda yayınlanır.

"Məmməd Araz" ədəbi mükafatı (2003), Beynəlxalq "Rəsul Rza" mükafatına (2008), Səməd Vurğun Fondunun diplomuna layiq görülmüsünüz. Haqqınızda çoxlu sayda ədəbi-tənqidi məqalələr, eləcə də, kitablar yazılıb.

"Karvan körpüdən keçir" (1997), "Ocağımın işığı" ("Azərbaycan" nəşriyyatı, 2001), "İçərişəhər, daşlar, insanlar" ("Azərbaycan", 2001), "Həsrət körpüsü" ("Azərbaycan", 2003), "Sözə doğru" ("Azərbaycan", 2003), "Dünyanın söz üzü" ("Səda" nəşriyyatı, 2007), "Meyar" ("Səda", 2008), "Arzulara dəyən güllə" ("Səda", 2008), "Dilimiz-varlığımız" ("MBM", 2009), "Araz ağrısı" ("Təknur" nəşriyyatı, 2009), "Dünya yazana qaldı" ("Təknur", 2009), "Yaddaşa aparan yollar" ("Adiloğlu" nəşriyyatı, 2010), "Axtala əfsanəsi" ("Adiloğlu", 2010), "Həyatın dastanı" ("Xəzər Universitəsi" nəşriyyatı, 2012), "Üçüncü dünyanın qorxusu" ("Təknur", 2011), "Döyüşçü əfsanəsi" ("Adiloğlu", 2011), "Damcılı" ("Təknur", 2011), "Bu dünyanın Mehmanısan" ("Nərgiz" nəşriyyatı, 2012), "Qırmızı həqiqətlər" ("Adiloğlu", 2011), "Azadlığın qanı" ("Təknur", 2011), "Ölməzlik nəğməsi" ("Vətən" nəşriyyatı, 2013), "Bu da bir yazı" ("Nurlan" nəşriyyatı, 2012), "Əbədi həyat arzusu" ("Vətən" nəşriyyatı, 2014), "Od" ("Nərgiz", 2013), "Aydın abi və Türkiyə ədəbiyyatı" ("Xəzər Universitəsi", 2014), "Ağrı" ("Vətən", 2014), "Bir bayatı çağırdım..." ("Xəzər Universitəsi", 2013), "Söz içində söz" ("Xəzər Universitəsi", 2013), "Vaqifliyin poetik sirri" (Naxçıvan, "Qeyrət" nəşriyyatı, 2013), "Həsrətdən üzü bəri" ("Vətən", 2015), "Sözün yeddi gözəli" ("Vətən", 2016), "Söz və qan" ("Vətən", 2016), "Tənqidçinin Azərbaycançılıq idealı" (monoqrafiya; "Vətən", 2016), "Üzü Qarabağa" ("Vətən", 2016), "Qiyamətdən bir gün əvvəl" ("Nərgiz", 2017), "Bir ayrılıq odu var..." ("Vətən", 2017), "Göy üzündə səs" ("Vətən", 2018), "Həyat həqiqəti: bədii-publisistik düşüncədə" (2 cilddə; "Bakı" mətbəəsi, 2022), "Şərhin poetik notları" ("Vətən", 2022), "Bir bülbülün türküsü" ("Gənclik" nəşriyyatı, 2023), "Türkiyənin zəlzələ ağrıları" ("Gənclik", 2023) – sizin çoxsaylı kitablarınızdan yalnız bir qismidir.

Abbas Hacıyev "Sənətin işığında", Mədəd Çobanov, Müşfiq Çobanlı "Xələflinin yaradıcılıq yolu", Sabir Bəşirov "Əli Rza Xələfli - ədəbi yol-əbədi yol" kitabını sizin məhsuldar yaradıcılığınıza həsr edib.

Sizi qarşıdan gələn 70 illik yubileyiniz və yaradıcılıq uğurlarınız münasibəti ilə bir daha təbrik edir, ən xoş arzularımı yetirirəm"!

Ə.Xələfli görüş və xoş sözlər üçün Komitə sədrinə təşəkkür edib.